*Cümhuriyyətimizin nazirləri:*

# Nəsib bəy Yusifbəyli



**1918-ci il may ayının 28-də Zaqafqaziya Seyminin Müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etdi. Beləliklə, Azərbaycanın ilk Parlamenti yarandı və parlamentli respublikanın bünövrəsi qoyuldu. İstiqlal bəyannaməsində bəyan edildiyi kimi. "Müəssislər Məclisi toplanıncaya qədər Azərbaycanın başında xalqın seçdiyi Milli Şura və Milli Şura qarşısında məsuliyyət daşıyan Müvəqqəti hökumət" durdu. 1918-ci il sentyabrın 17-də Fətəli xan Xoyski kabinetinin təşkilindən üç ay sonra Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakıya köçdü. Bakı paytaxt elan olundu... Cümhuriyyət isə cəmi 23 ay yaşaya bildi...**

Azərbaycan tarixinin tanınmış simalarından biri olan Nəsib bəy Yusifbəylinin (1881-1920) Azərbaycan Respublikasının yaradılmasında müstəsna rolu olmuşdur. Cümhuriyyətin banilərindən olan M.Ə.Rəsulzadənin aşağıdakı sözlərinə diqqət yetirək: "Azərbaycan ideyasını siyasi bir mətləb maddəsi şəklində formula etmək şərəfi Nəsib bəyindir. O, milli Azərbaycan demokratiyasının yetişdirdiyi elə bir mümməssildir (nümayəndə) ki, milli Azərbaycan hərəkatının istiqlala müncər olan qayəsini formulə etmək onun adı ilə bağlıdır. Sadəcə, bu, Nəsib ismini Azərbaycan tarixində ölməz və unudulmaz bir isim halına qoymaq üçün kafidir...".

Nəsib bəy Yusifbəyli 1881-ci ildə Gəncə şəhərində anadan olmuş, orta təhsilini Gəncə gimnaziyasında almışdır. 1902-ci ildə Odessa şəhərindəki imperator Novorossiysk Universitetinin hüquq fakültəsinə daxil olmuş, amma onun bağlanması səbəbindən universiteti bitirə bilməmişdir. Nəsib bəy Yusifbəyli təhsilini Xarkov Universitetinin hüquq fakültəsində davam etdirmək istəsə də universiteti yarımçıq atmalı, təhsilini tamamlamadan Krımda yerləşən Bağçasaray şəhərinə getmək məcburiyyətində qalmışdır. O, burada İsmayıl Qaspıralının əsasını qoyduğu "Tərcüman" qəzetində fəaliyyət göstərmişdir. Bağçasarayda olarkən İsmayıl Qaspıralının qızı Şəfiqə Qaspıralı ilə tanış olur və daha sonra onunla ailə qurur. Nəsib bəy Yusifbəyli həmin illərdə Azərbaycan dramaturqlarının əsərlərini Bağçasarayda tamaşaya qoyur, özü də əsas rollarda çıxış edir. "Tərcüman" qəzetinin 1907-ci il 13 yanvar tarixli nömrəsində Bağçasaray şəhər teatr həvəskarları ilə birgə Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq" faciəsinin tamaşaya qoyulduğu və Nəcəf bəy rolunu Nəsib bəy Yusifbəylinin oynadığı xəbər verilirdi.

Siyasi düşüncə və fəaliyyətinə görə çar hökuməti tərəfindən təqib olunduğu üçün İstanbula köçən Nəsib bəy burada türk Dərnəyi Cəmiyyəti ilə təmasda olur. 1909-cu ildə İstanbuldan Gəncəyə geri dönən Nəsib bəy burada şəhər Dumasında fəaliyyət göstərir, həmçinin mətbuatda çıxış etməyə başlayır.

Nəsib bəy hələ 1905-ci ildə Gəncədə yaradılmış, Azərbaycanın ilk milli siyasi təşkilatı olan "Difai" firqəsinin fəaliyyətində yaxından iştirak etmişdir. Həmin firqənin yaradılmasından əvvəl "Qeyrət" adlı gizli təşkilat mövcud idi və onun yaradıcıları da Yusifbəylilər (ata - Yusif bəy və oğulları - Həmid bəy və Nəsib bəy) olmuşdur. Elə "Difai" üçün də bir növ "baza" rolunu "Qeyrət" oynamışdır.

Birinci Dünya müharibəsi başlayarkən qurulmuş və Azərbaycanın taleyində bir çox hallarda həlledici rol oynamış Gəncə Milli Komitəsinin sədri də Nəsib bəy Yusifbəyli idi. Şübhəsiz ki, millətin fiziki mübadiləsi ilə yaranmış "Difai"dən və milli özünüdərkin möhkəmlənməsi üçün təcrübə qazandırmış Gəncə Milli Komitəsindən sonra siyasi təkamülün yeni mərhələsinə zərurət yaranmışdı.

Monarxiyanın süqutundan cəmi bir neçə gün sonra Gəncədə Nəsib bəy Yusifbəyli öz silahdaşları Həsən bəy Ağayev, Şəfi bəy Rüstəmbəyov, Xasməmmədli, Şeyxzamanlı qardaşları ilə birlikdə "Türk Adəmi-mərkəziyyət firqəsi"nin əsasını qoyurlar. 1917-ci ilin martında, Novruz bayramı günü Gəncənin Şah Abbas məscidinin önündə izdihamlı mitinq keçirilir, mitinqdə partiyanın lideri N.Yusifbəyli nitq söyləyir, ilk dəfə olaraq Azərbaycan anlayışı siyasi mənada işlədilir: "Yaşasın Azərbaycan muxtariyyəti!", Yaşasın Demokratik Respublika!" Yaşasın Türk Adəmi -Mərkəziyyət Partiyası!" şüarları səsləndirilir.

1917-ci il aprelin 15-dən 20-dək Bakıda keçirilən Qafqaz müsəlmanlarının qurultayında N.Yusifbəylinin rəhbərliyi altında Gəncədən olan yenilikçi siyasətçilərin fəallığı bu toplantının siyasi ab-havasını müəyyənləşdirir. 1917-ci il may ayının axırlarında "Türk Adəmi-mərkəziyyət" firqəsi "Türk Adəmi-mərkəziyyət firqəsi Müsavat" adlandırılır və Azərbaycanın siyasi həyatında hakim mövqe tutur.

Petroqraddakı bolşevik çevrilişinin baş verməsindən sonra oktyabrın 26-dan 31-dək Bakıda "Türk Adəmi-mərkəziyyət firqəsi Müsavat"ın birinci qurultayı keçirilir. Toplantı qarşıdakı siyasi mübarizədə partiyanın strategiya və taktikasını müəyyənləşdirərək onun yeni proqramını qəbul edir. Bu sənəd N.Yusifbəylinin başçılığı altındakı siyasətçilərin adəmi-mərkəziyyət prinsipləri əsasında tərtib olunmuşdu. Beləliklə, azərbaycanlıların ən iri siyasi təşkilatının proqramında istər demokratik əsaslarla qurulmaq ehtimalı olan Rusiya dövlətinə münasibətdə, istərsə İslam aləmi, həmçinin türk dünyası ilə münasibətdə Azərbaycanın yalnız özünəməxsus olan öz inkişaf haqlarının, başqa sözlə, Azərbaycançılıq ideyasının gerçəkləşdirilməsi başlıca məqsəd hesab olunur. İstiqlala aparan bu ideyanı qısaca və dürüst ifadə edən isə Nəsib bəy Yusifbəyli idi.

Nəsib bəy Yusifbəyli 1920-ci ilin may ayında istiqlalımızı istəməyənlərin məkrli sui-qəsdilə 39 yaşında qətlə yetirilmişdir. O, az yaşasa da, adını tariximizə siyasi Azərbaycan ideyasının müəllifi kimi yazdıra bildi.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**